**Horizon Multidisciplinary Scientific Journal**
Journal homepage: https://horizonmsj.com/
ISSN 3135-4890
E-ISSN 3135-4904

Original Research Paper

# ÇAĞDAŞ AZƏRBAYCAN NƏSRİNDƏ İNİSİASİYA

**ALI HASHIMOV**
https://orcid.org/0009-0005-7069-9202

[1] Naxçıvan Dövlət Universitetinin, Naxçıvan, Azərbaycan

Article history
Received: 05.08.2026
Revised: 11.08.2026
Accepted: 26.08.2026

*Corresponding Author: Əli Həşimov, Naxçıvan Dövlət Universitetinin, Naxçıvan, Azərbaycan
Email: **elihesimov@ndu.edu.az**

**Xülasə**

Məqalədə çağdaş Azərbaycan nəsrində inisiasiya motivinin poetik və semantik xüsusiyyətləri, fərdin mənəvi-psixoloji transformasiyası və identiklik axtarışı kontekstində təhlil edilir. Tədqiqatın əsas məqsədi inisiasiya strukturunun müasir Azərbaycan romanında qazandığı yeni funksiyaları müəyyənləşdirmək, onun mifoloji, psixoanalitik və mədəni yaddaş aspektlərini sistemli şəkildə araşdırmaqdır. Tədqiqatda antropoloji, psixoanalitik, struktur-semiotik və mədəni yaddaş yanaşmalarından istifadə edilmiş, Arnold van Gennep, Mirça Eliade, Karl Qustav Yunq, Jozef Kempbell, Jan Assmann və Pol Rikerin nəzəri konsepsiyalarına istinad olunmuşdur. Anar, Elçin və Kamal Abdullanın nəsr əsərlərinin təhlili göstərir ki, çağdaş Azərbaycan ədəbiyyatında ənənəvi inisiasiya modeli əhəmiyyətli transformasiyaya uğrayaraq ritual xarakterindən uzaqlaşmış, əsasən psixoloji, ekzistensial və mədəni məzmun qazanmışdır. Müəyyən edilmişdir ki, qəhrəmanın mənəvi dəyişməsi yalnız fərdi böhran və özünüdərk prosesi ilə məhdudlaşmır; kollektiv yaddaş, tarixi travma, müharibə təcrübəsi, urbanizasiya və yadlaşma kimi sosial-mədəni amillərlə də şərtlənir. Nəticələr göstərir ki, çağdaş Azərbaycan romanında inisiasiya süjetyaradıcı motiv olmaqla yanaşı, fərdi və milli identikliyin formalaşmasını, yaddaşın yenidən qurulmasını və modern insanın mənəvi bütövləşmə cəhdlərini ifadə edən kompleks poetik model kimi çıxış edir.

**Açar sözlər:** *inisiasiya, çağdaş Azərbaycan nəsri, identiklik, mənəvi transformasiya, mədəni yaddaş, travma, urbanizasiya, mifoloji struktur*

**Giriş.** XX əsrin sonu – XXI əsrin əvvəllərində Azərbaycan cəmiyyətində baş verən ictimai-siyasi transformasiyalar, qloballaşma prosesləri, urbanizasiyanın sürətlənməsi və kollektiv travmaların artması ədəbi düşüncədə insanın daxili aləminə marağı daha da gücləndirmişdir. Bu dövrdə roman janrı yalnız sosial hadisələrin təsviri ilə kifayətlənmir, həm də fərdin psixoloji və mənəvi dəyişmə prosesini, onun özünü dərk etmə mərhələlərini bədii şəkildə modelləşdirir. Müasir Azərbaycan romanında tez-tez rast gəlinən motivlərdən biri də inisiasiya, yəni qəhrəmanın sınaqlardan keçərək yeni identiklik qazanması prosesidir.

İnisiasiya anlayışı ilkin olaraq antropologiya və mifologiya kontekstində işlədilmişdir. Fransız etnoloqu Arnold van Gennep keçid mərasimlərini araşdırarkən göstərirdi ki, insan həyatında müəyyən mərhələlər "ayrılma – keçid – yenidən qəbul edilmə" strukturuna malikdir (van Gennep, 1960, s. 11). Bu model sonradan ədəbiyyatşünaslıqda qəhrəmanın mənəvi transformasiyasını izah edən universal sxem kimi tətbiq edilmişdir. M.Eliade isə inisiasiyanı insanın "sakral təcrübə vasitəsilə yenidən doğulması" kimi xarakterizə edərək qeyd edirdi ki, inisiasiya insanın ontoloji statusunu dəyişdirir və onu əvvəlki varlıq səviyyəsindən fərqli mərhələyə keçidini təmin edir (Eliade, 1958, s. 10). Psixoanalitik yanaşmada inisiasiya fərdin şüur və şüursuzluq münasibətlərində baş verən transformasiya kimi izah edilir. Karl Qustav Yunq arxetip nəzəriyyəsində göstərirdi ki, insanın psixi inkişafı müəyyən simvolik mərhələlərdən keçir və bu proses "öz" arxetipinin formalaşması ilə nəticələnir (Jung, 1968, s. 238). Bu kontekstdə inisiasiya yalnız sosial ritual deyil, həm də psixoloji bütövləşmə prosesidir.


This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license.

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (5): page 12-17
DOI: https://doi.org/10.5281/zenodo.22230846

**Təhlil**. Müasir ədəbiyyatşünaslıqda inisiasiya motivi fərdin identiklik axtarışı ilə əlaqələndirilir. Jozef Kempbell qəhrəman arxetipini təhlil edərkən qeyd edir ki, mifoloji strukturlarda qəhrəman səfərə çıxır, sınaqlardan keçir və yeni idrak səviyyəsinə yüksəlir (Campbell, 2008, s. 30). Bu struktur sonradan roman poetikasında da müxtəlif formalarda təzahür etməyə başladı. Xüsusilə çağdaş modern və postmodern romanlarda qəhrəmanın səyahəti fiziki deyil, daha çox daxili transformasiya ilə bağlanır.

Çağdaş Azərbaycan romanında inisiasiya motivinin aktuallaşması bir sıra sosial və tarixi amillərlə bağlıdır. XX əsrin sonlarında baş verən siyasi dəyişikliklər, Qarabağ müharibəsi, miqrasiya prosesləri və sürətli modernləşmə fərdin identiklik böhranını gücləndirmişdir. Ədəbiyyat bu böhranı estetik modelə çevirərək fərdin mənəvi təcrübəsini bədii struktur daxilində təqdim edir. Akademik Muxtar İmanovun qeyd etdiyi kimi, XX əsrin ikinci yarısından etibarən Azərbaycan nəsrində insanın daxili aləminin təsviri güclənmiş, psixoloji təhlil bədii təsvirin əsas komponentlərindən birinə çevrilmişdir (İmanov, 2021, s. 4).

Müasir romanlarda qəhrəmanın inisiasiya yolu çox zaman travmatik təcrübə ilə müşayiət olunur. Müharibə yaddaşı, kollektiv itki hissi, şəhər mühitində yadlaşma və mənəvi boşluq kimi faktorlar fərdin özünü dərk prosesini mürəkkəbləşdirir. Bu baxımdan çağdaş Azərbaycan romanı həm milli identiklik problemini, həm də qlobal modern insanın varlıq böhranını paralel şəkildə əks etdirir. İnisiasiya modeli çağdaş romanda yalnız fərdi psixoloji proses kimi deyil, həm də kollektiv yaddaş fenomeni kimi çıxış edir. Jan Assmannın "mədəni yaddaş" konsepsiyasına görə, cəmiyyətin tarixi təcrübəsi fərdin identikliyinin formalaşmasına təsir göstərir (Assmann, 2011, s. 37). Bu kontekstdə roman qəhrəmanının keçdiyi mənəvi transformasiya milli yaddaşın bədii rekonstruksiyası kimi də dərk edilə bilər. Beləliklə, çağdaş Azərbaycan romanında inisiasiya motivi yalnız süjet elementi deyil, həm də insanın mənəvi bütövləşmə modelidir. Bu model vasitəsilə ədəbiyyat fərdin daxili böhranını, identiklik axtarışını və sosial transformasiyalar fonunda dəyişən insan konsepsiyasını ifadə edir.

Məqalənin məqsədi çağdaş Azərbaycan romanında inisiasiya strukturunun poetikasını araşdırmaq, onun mifoloji, psixoanalitik və mədəni yaddaş kontekstində funksiyasını müəyyənləşdirməkdir.

İnisiasiya fenomeni xüsusilə mifoloji təfəkkür sistemində mühüm yer tutur. Ənənəvi cəmiyyətlərdə insanın sosial statusu yalnız bioloji yaşla deyil, müəyyən ritual sınaqlardan keçməklə müəyyən olunurdu. Bu baxımdan inisiasiya yalnız sosial adaptasiya deyil, həm də sakral təcrübə kimi qəbullanılır. Mifoloji strukturlarda qəhrəmanın keçdiyi yol çox zaman sınaqlar sistemi kimi təqdim edilir. Bu model J.Kempbell tərəfindən "qəhrəmanın səfəri" konsepsiyası kimi ümumiləşdirilmişdir. Bu struktur sonradan roman poetikasında fərqli formalarda transformasiya olunmuşdur. Müasir romanda fiziki səyahət çox vaxt psixoloji və mənəvi səyahətə çevrilir.

Psixoanalitik yanaşmada inisiasiya çox zaman böhranla əlaqələndirilir. Erik Erikson identiklik nəzəriyyəsində qeyd edir ki, insanın inkişafı psixososial mərhələlərdən keçir və bu mərhələlərdə böhran identikliyin formalaşması üçün vacib şərtdir (Erikson, 1968, s. 128). Bu baxımdan böhran insanın əvvəlki identiklik modelinin transformasiyasına səbəb olur. Müasir roman qəhrəmanı da çox zaman identiklik böhranı yaşayır və bu böhran onun mənəvi yenilənməsinə gətirib çıxarır. Mədəniyyətşünaslıqda isə inisiasiya kollektiv yaddaş fenomeni ilə də əlaqələndirilir. Bu kontekstdə inisiasiya yalnız fərdi psixoloji proses deyil, həm də kollektiv təcrübənin fərdi şüurda yenidən qurulması kimi izah edilə bilər. Struktur-semiotik yanaşmada isə fərqli olaraq inisiasiya modeli mətnin süjet strukturunda transformasiya mexanizmi kimi qiymətləndirilir. Yuri Lotman bədii mətnin yeni mənalar yaratmaq qabiliyyətini vurğulayaraq göstərirdi ki, qəhrəmanın keçdiyi yol mədəni kodların yenidən təşkilinə səbəb olur (Lotman, 1990, s. 134). Bu baxımdan inisiasiya yalnız süjet hadisəsi deyil, həm də mədəni mənanın formalaşma prosesidir.

Müasir ədəbiyyatşünaslıqda inisiasiya romanın poetik struktur elementlərindən biri kimi çıxış edir. Xüsusilə modern və postmodern romanlarda qəhrəmanın transformasiyası açıq ritual formasında deyil, simvolik və psixoloji səviyyədə təqdim olunur. Qəhrəmanın yadlaşma hissi, ekzistensial tənhalıq, yaddaş böhranı və mənəvi parçalanma kimi motivlər inisiasiya modelinin yeni formaları kimi dərk olunur. Çağdaş Azərbaycan ədəbiyyatşünaslığında da insanın daxili transformasiyası məsələsinə xüsusi diqqət yetirilmişdir. Belə ki, müasir Azərbaycan nəsrində insanın daxili dünyasının təsviri milli düşüncə modelinin

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (5): page 12-17
DOI: https://doi.org/10.5281/zenodo.22230846

yenilənməsi ilə əlaqəlidir. Çünki, çağdaş nəsrdə qəhrəman artıq yalnız sosial tip deyil, psixoloji fərd kimi təqdim olunur və bu, ədəbiyyatın antropoloji istiqamətinin gücləndirir desək, yanılmarıq.

Beləliklə, nəzəri yanaşmalar göstərir ki, inisiasiya fenomeni universal mədəni model olmaqla yanaşı, fərdin psixoloji və mənəvi inkişafının struktur sxemini ifadə edir. Antropoloji, psixoanalitik və struktur-semiotik yanaşmaların sintezi inisiasiya modelini roman poetikasında transformasiya mexanizmi kimi izah etməyə imkan verir. Bu model çağdaş Azərbaycan romanında fərdin identiklik axtarışını və mənəvi yenilənmə prosesini anlamaq üçün metodoloji əsas yaradır.

Çağdaş Azərbaycan romanında inisiasiya motivi fərdin mənəvi transformasiyasını ifadə edən aparıcı poetik mexanizmlərdən biri kimi çıxış edir. Ənənəvi mifoloji strukturlarda qəhrəmanın keçdiyi sınaqlar sistemi modern və postmodern romanda daha çox psixoloji və ekzistensial xarakter alır. Bu baxımdan müasir Azərbaycan romanı qəhrəmanın xarici macəralarından çox onun daxili təcrübəsinə fokuslanır. Tədqiqatçıların qeyd etdiyi kimi, modern ədəbiyyatda qəhrəmanın əsas mübarizəsi artıq xarici qüvvələrlə deyil, onun öz daxili dünyası ilə bağlıdır (Moretti, 2000, s. 56). Bu aspektdən yanaşaraq çağdaş nəsrimizin nümayəndələrinin yaradıcılığına nəzər salaq.

Anarın nəsrində fərdin daxili aləmi və mənəvi transformasiyası aparıcı mövzulardan biridir. Yazıçının roman və povestlərində qəhrəman çox zaman sosial mühitlə daxili dünyası arasında ziddiyyət yaşayır və bu ziddiyyət onun identiklik axtarışına səbəb olur. Məsələn, Anarın “Beşmərtəbəli evin altıncı mərtəbəsi” əsərində qəhrəmanın psixoloji vəziyyəti sosial reallıqla fərdi istəklər arasındakı konflikt üzərində qurulmuşdur. Əsərdə insanın özünü dərk prosesi tədricən baş verir və qəhrəman daxili böhran yaşayaraq yeni dünyagörüşü formalaşdırır. Anarın nəsrində insanın mənəvi aləmi modern dövrün ziddiyyətlərini əks etdirir və bu ziddiyyətlər fərdin daxili inkişafının əsas faktoruna çevrilir. Bu baxımdan Anarın qəhrəmanları klassik qəhrəman tipindən fərqlənərək daha çox psixoloji dinamika ilə səciyyələnir. Anarın qəhrəmanları çox zaman həyatın mənası, seçim azadlığı və fərdi məsuliyyət kimi problemlərlə qarşılaşır. Bu proses onların mənəvi inisiasiyasına səbəb olur. Ümumilikdə Anarın nəsrində qarşılaşdığımız qəhrəmanların analizi deməyə əsas verir ki, yazıçının əsərlərində insanın daxili tənhalığı və mənəvi axtarışları modern insanın identiklik böhranını əks etdirir. Bu baxımdan Anarın nəsrində inisiasiya sosial təcrübənin fərdi şüurda yenidən qurulması kimi çıxış edir.

Elçinin nəsrində inisiasiya motivi yaddaş fenomeni ilə sıx bağlıdır. Yazıçının romanlarında qəhrəmanın keçmişlə münasibəti onun mənəvi transformasiyasının əsas şərti kimi təqdim olunur. Məsələn, Elçinin “Mahmud və Məryəm” romanında qəhrəmanların taleyi dini, mədəni və tarixi identiklik problemləri fonunda təqdim edilir. Əsərdə qəhrəmanların keçdiyi mənəvi yol yalnız fərdi deyil, həm də kollektiv yaddaşın bədii modelidir. Belə ki, J.Assmannın mədəni yaddaş nəzəriyyəsinə görə, fərdin identikliyi kollektiv yaddaşın təsiri ilə formalaşır və keçmişin simvolik rekonstruksiyası insanın dünyagörüşünü müəyyənləşdirir (Assmann, 2011, s. 36). Elçinin romanlarında da qəhrəmanların mənəvi transformasiyası çox zaman tarixi yaddaşın təsiri ilə baş verir. Elçinin qəhrəmanları tez-tez seçim qarşısında qalır və bu seçim onların mənəvi inkişafına təsir göstərir. Bu baxımdan yazıçının əsərlərində inisiasiya motivi fərdin mənəvi azadlığı ilə əlaqələndirilir. Tənqidçi -ədəbiyyatşünas Yaşar Qarayevin də qeyd etdiyi kimi  Elçinin nəsrində insanın daxili aləmi zaman və yaddaş kateqoriyaları ilə bağlı şəkildə təqdim olunur (Qarayev, 2005, s. 214).

Kamal Abdullanın romanlarında inisiasiya modeli mifoloji strukturlar vasitəsilə təqdim olunur. Yazıçının “Yarımçıq əlyazma” romanında mifoloji düşüncə ilə postmodern təfəkkürün sintezi yazıçının fərdi yaradıcılıq üslubu səviyyəsinə qalxır. Əsərdə qəhrəmanların identiklik problemi mətndaxili mətn strukturu vasitəsilə ifadə olunur. Məqama münasibətdə M.Eliade qeyd edir ki, mifoloji struktur insanın varlıq modelini simvolik şəkildə təqdim edir və bu struktur sakral zaman anlayışı ilə bağlıdır (Eliade, 1959, s. 92). Kamal Abdullanın romanlarında da mifoloji struktur qəhrəmanın mənəvi transformasiyasını simvolik səviyyədə ifadə edir. Akademik İsa Həbibbəyli yazır ki, Kamal Abdullanın yaradıcılığında mifoloji yaddaş modern düşüncə ilə sintez olunur və bu sintez milli identiklik problemini yeni kontekstdə təqdim edir (Həbibbəyli, 2009, s. 67). Bu baxımdan yazıçının romanlarında inisiasiya modeli yalnız fərdi deyil, həm də mədəni identiklik problemi kimi çıxış edir.

CC BY
This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license
OPEN ACCESS

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (5): page 12-17
DOI: https://doi.org/10.5281/zenodo.22230846

Postmodern romanlarda inisiasiya modeli klassik strukturdan fərqlənir. Qəhrəmanın transformasiyası çox zaman qeyri-xətti süjet, fraqmentar struktur və intertekstual elementlər vasitəsilə təqdim olunur. L.Hutcheon postmodern ədəbiyyatda identiklik probleminin ironik və çoxqatlı formada təqdim olunduğunu qeyd edir və söyləyir ki, postmodernizm identikliyi sabit kateqoriya kimi deyil, dəyişən konstruksiya kimi təsbit və təqdim edir (Hutcheon, 1988, s. 34). Çağdaş Azərbaycan romanında da postmodern poetika qəhrəmanın inisiasiya modelini dəyişir. Qəhrəman artıq müəyyən nəticəyə çatmır, onun transformasiyası açıq qalır və oxucunun interpretasiyasına verilir. Bu xüsusiyyət modern insanın qeyri-sabit identiklik modelini əks etdirir.

Beləliklə, çağdaş Azərbaycan romanında inisiasiya modeli müxtəlif poetik formalarda təzahür edir. Anarın nəsrində psixoloji transformasiya, Elçinin romanlarında yaddaş fenomeni, Kamal Abdullanın yaradıcılığında mifoloji struktur və postmodern romanda identiklik böhranı inisiasiyanın müxtəlif təzahür formalarını göstərir. Bu model fərdin mənəvi inkişafını və sosial transformasiyalar fonunda dəyişən insan konsepsiyasını anlamağa imkan verir.

İnisiasiya və travma: müharibə, urbanizasiya və yadlaşma kontekstində fərdin transformasiyası. Çağdaş Azərbaycan romanında inisiasiya motivi çox zaman travmatik təcrübə ilə əlaqəli şəkildə təqdim olunur. Müharibə, sosial dəyişikliklər, urbanizasiya və mənəvi dəyərlərin aşınması fərdin daxili dünyasında böhran yaradır və bu böhran onun yeni identiklik qazanması prosesinə səbəb olur. Müasir ədəbiyyatşünaslıqda travma yalnız psixoloji hadisə kimi deyil, həm də mədəni fenomen kimi izah edilir. K.Karut travma nəzəriyyəsində qeyd edir ki, travmatik təcrübə insanın yaddaş strukturunu dəyişdirir və keçmiş hadisə şüurda təkrar şəkildə qayıdır (Caruth, 1996, s. 4). Bu baxımdan travma fərdin özünüdərk prosesinə təsir edən mühüm faktora çevrilir.

Azərbaycan romanında müharibə mövzusu yalnız tarixi hadisənin təsviri deyil, həm də insanın daxili dünyasında baş verən dəyişikliklərin bədii modelidir. Qarabağ müharibəsi mövzusu çağdaş nəsrdə kollektiv travma kimi təqdim olunur və fərdin psixoloji vəziyyətinə təsir göstərir. Dominik La Kapra qeyd edir ki, kollektiv travma fərdin identiklik modelinə təsir edir və onun keçmişlə münasibətini dəyişdirir (LaCapra, 2001, s. 41). Müharibə mövzulu romanlarda qəhrəman çox zaman itki, yaddaş və mənəvi sarsıntı ilə qarşılaşır. Bu qarşılaşma onun əvvəlki identiklik modelinin transformasiyasına səbəb olur. Ədəbiyyatşünas Yaşar Qarayevin mövzuya yanaşmalarından belə nəticəyə gəlmək olur ki, müasir Azərbaycan nəsrində müharibə mövzusu insanın daxili aləminin dramatizmini artırır və fərdin mənəvi seçim problemi ön plana keçir (Qarayev, 2005, s. 219). Bu baxımdan müharibə travması inisiasiya prosesinin başlanğıc mərhələsi kimi çıxış edir. Travmatik təcrübə həm də qəhrəmanın zaman və məkan qavrayışını dəyişdirir. Pol Riker qeyd edir ki, insanın identikliyi onun yaddaş strukturuna əsaslanır və yaddaşın pozulması identiklik böhranına səbəb olur (Ricoeur, 1992, s. 114). Beləliklə, müharibə mövzulu romanlarda qəhrəmanın keçmişlə münasibəti dəyişir və bu dəyişiklik onun mənəvi transformasiyasına gətirib çıxarır.

Urbanizasiya prosesi çağdaş Azərbaycan romanında inisiasiya modelinin mühüm kontekstlərindən biridir. Şəhər mühiti fərdin sosial əlaqələr sistemini dəyişdirir və onun tənhalıq hissini gücləndirir. G.Zimmel şəhər həyatının insan psixologiyasına təsirini təhlil edərək qeyd edir ki, böyük şəhər fərdin emosional münasibətlərini zəiflədir və onun sosial təcridini artırır: “metropol insanın daxili həyatında fərqləşmə yaradır” (Simmel, 2002, s. 19). Çağdaş Azərbaycan romanında şəhər yalnız məkan deyil, həm də psixoloji vəziyyət kimi təqdim olunur. Qəhrəman çox zaman urban mühitdə yadlaşma hissi yaşayır və bu hiss onun özünüdərk prosesinə təsir göstərir. Bu baxımdan urbanizasiya fərdin davamlı inisiasiya vəziyyətində olmasına səbəb olur, bu proses də çağdaş nəsrdən alınmış qəhrəmanların düşüncəsinə hakimdir, deyə bilərik. Azərbaycan nəsrində urban mühit çox zaman mənəvi boşluq və ekzistensial tənhalıqla əlaqələndirilir. Çünki müasir Azərbaycan romanında şəhər mühiti fərdin mənəvi identiklik problemini dərinləşdirir və qəhrəmanın daxili konfliktini gücləndirir. Bu kontekstdə urbanizasiya fərdin inisiasiya prosesinin sosial müstəvisini təşkil edir.

Çağdaş Azərbaycan romanında yaddaş fenomeni inisiasiya modelinin əsas komponentlərindən biri kimi çıxış edir. Qəhrəmanın keçmişlə münasibəti onun identiklik modelini müəyyənləşdirir. Jan Assmann

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (5): page 12-17
DOI: https://doi.org/10.5281/zenodo.22230846

qeyd edir ki, mədəni yaddaş fərdin dünyagörüşünün formalaşmasına təsir göstərir və kollektiv identiklik strukturunu müəyyənləşdirir (Assmann, 2011, s. 37). Roman qəhrəmanı çox zaman keçmiş təcrübəni yenidən dərk etməklə mənəvi transformasiya yaşayır. Bu proses psixoanalitik kontekstdə fərdin şüursuz təcrübəsinin şüur səviyyəsinə çıxması kimi interpretasiya edilir. Karl Qustav Yunq qeyd edir ki, insanın psixoloji inkişafı onun şüursuz strukturları ilə qarşılaşması nəticəsində baş verir (Yung, 1968, s. 266). Bu baxımdan yaddaş fenomeni inisiasiya prosesinin daxili mexanizmi kimi çıxış edir. Müasir romanda zaman xətti çox zaman fraqmentar xarakter daşıyır və keçmişlə indiki zaman paralel şəkildə təqdim olunur. Pol Riker qeyd edir ki, narrativ struktur insanın zaman təcrübəsini mənalandırmağa imkan verir və bu proses identiklik modelinin formalaşmasına təsir edir. Çağdaş Azərbaycan romanında zamanın fraqmentar təqdimatı qəhrəmanın mənəvi transformasiyasını daha mürəkkəb və çoxqatlı şəkildə göstərir.

Travma, yaddaş və urbanizasiya faktorları inisiasiya modelinin sosial-fəlsəfi məzmununu müəyyənləşdirir. Müasir Azərbaycan romanında fərdin transformasiyası yalnız şəxsi təcrübə deyil, həm də sosial dəyişikliklərin nəticəsidir. Entoni Giddens qeyd edir ki, modern cəmiyyətdə identiklik refleksiv xarakter daşıyır və insan öz həyatını davamlı şəkildə yenidən qurur (Giddens, 1991, s. 5). Bu baxımdan çağdaş Azərbaycan romanında inisiasiya modeli fərdin modern dünyada öz yerini müəyyənetmə cəhdini ifadə edir. Qəhrəmanın keçdiyi transformasiya prosesi onun mənəvi bütövləşmə istiqamətində hərəkətini göstərir. Beləliklə, travma, yaddaş və urbanizasiya faktorları çağdaş Azərbaycan romanında inisiasiya strukturunun əsas semantik qatlarını təşkil edir.

Nəticə. Çağdaş Azərbaycan romanında inisiasiya motivinin tədqiqi göstərir ki, müasir nəsrdə insanın mənəvi və psixoloji transformasiyası aparıcı poetik modellərdən biri kimi çıxış edir. Əgər klassik ədəbiyyatda qəhrəmanın formalaşması daha çox xarici sınaqlar sistemi ilə əlaqələndirilirdisə, çağdaş romanda bu proses fərdin daxili dünyasında baş verən dəyişikliklər vasitəsilə təqdim olunur. Bu xüsusiyyət modern və postmodern estetik düşüncənin insan probleminə yönəlməsi ilə bilavasitə bağlıdır. Aparılan təhlillər göstərir ki, inisiasiya modeli universal mədəni struktur olmaqla yanaşı, çağdaş Azərbaycan romanında milli identiklik probleminin bədii ifadə forması kimi də çıxış edir. Müasir romanda bu keçid sosial statusdan daha çox mənəvi və psixoloji səviyyədə baş verir. Mifoloji və psixoanalitik yanaşmalar göstərir ki, inisiasiya insanın ontoloji dəyişməsi ilə bağlıdır. Bu baxımdan çağdaş Azərbaycan romanında qəhrəmanın keçdiyi mənəvi transformasiya yalnız fərdi psixoloji hadisə deyil, həm də mədəni semantik məna daşıyır. Psixoanalitik kontekstdə inisiasiya fərdin bütövləşmə prosesi kimi izah olunur. Müasir Azərbaycan romanında qəhrəman çox zaman daxili konflikt yaşayır və bu konflikt onun mənəvi transformasiyasına səbəb olur. Təhlil göstərir ki, Anarın romanlarında inisiasiya daha çox psixoloji tənhalıq və daxili seçim problemi ilə bağlıdır. Yazıçının qəhrəmanları sosial mühitlə fərdi azadlıq arasında qaldıqda mənəvi transformasiya yaşayır. Elçinin romanlarında inisiasiya modeli yaddaş fenomeni ilə əlaqələndirilir. Qəhrəmanın keçmişlə münasibəti onun identiklik modelini müəyyənləşdirir. Bu baxımdan Elçinin romanlarında yaddaş mənəvi transformasiyanın əsas şərtlərindən biri kimi çıxış edir. Kamal Abdullanın romanlarında isə inisiasiya modeli mifoloji struktur vasitəsilə təqdim olunur. Yazıçının yaradıcılığında mifoloji düşüncə ilə postmodern estetik təfəkkür sintez olunur. Kamal Abdullanın romanlarında da mifoloji struktur fərdin mənəvi transformasiyasını simvolik səviyyədə ifadə edir.

Aparılan təhlillər göstərir ki, travma fenomeni çağdaş Azərbaycan romanında inisiasiya modelinin əsas semantik qatlarından biridir. Müharibə mövzusu, sosial dəyişikliklər və urbanizasiya prosesi fərdin identiklik modelini dəyişdirərək onun mənəvi transformasiyasına səbəb olur. Urbanizasiya prosesi də inisiasiya modelinin sosial kontekstini müəyyənləşdirir. Bu baxımdan çağdaş Azərbaycan romanında qəhrəmanın transformasiyası modern insanın ekzistensial vəziyyətini əks etdirir.

Beləliklə, aparılan təhlil göstərir ki, çağdaş Azərbaycan romanında inisiasiya modeli aşağıdakı xüsusiyyətlərlə xarakterizə olunur:

1. fərdin daxili dünyasının prioritetliyi;
2. identiklik böhranı və mənəvi transformasiya;
3. kollektiv yaddaş və tarixi travmanın təsiri;
4. urbanizasiya və yadlaşma problemi;

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (5): page 12-17
DOI: https://doi.org/10.5281/zenodo.22230846

5. mifoloji strukturun modern interpretasiyası;
6. psixoloji və ekzistensial konfliktlərin güclənməsi.

Nəticə etibarilə demək olar ki, çağdaş Azərbaycan romanında inisiasiya motivi insanın mənəvi bütövləşmə modelini ifadə edir və bu model müasir dövrdə fərdin identiklik axtarışını bədii şəkildə təqdim edir. İnisiasiya strukturu çağdaş nəsrdə yalnız süjet elementi deyil, həm də insan konsepsiyasının fəlsəfi modelidir. Bu model vasitəsilə ədəbiyyat modern insanın daxili dünyasını, onun keçid vəziyyətini və mənəvi transformasiya prosesini estetik şəkildə ifadə edir.

## ƏDƏBİYYAT SİYAHISI

Abdulla, K. (2004). Yarımçıq əlyazma. Bakı: XXI – Yeni Nəşrlər Evi. 288 s.
Anar. (1982). Beşmərtəbəli evin altıncı mərtəbəsi. Bakı: Yazıçı. 240 s.
Assmann, J. (2011). Mədəni yaddaş və erkən sivilizasiya: Yazı, xatırlama və siyasi təxəyyül. Cambridge: Cambridge University Press. 410 s.
Bauman, Z. (2000). Maye modernlik. Cambridge: Polity Press. 240 s.
Campbell, J. (2008). Min sifətli qəhrəman (3-cü nəşr). Novato: New World Library. 418 s.
Caruth, C. (1996). Mənimsənilməmiş təcrübə: Travma, narrativ və tarix. Baltimore: Johns Hopkins University Press. 304 s.
Cəfərov, N. (2009). Azərbaycan ədəbiyyatında milli düşüncə. Bakı: Elm. 312 s.
Eliade, M. (1958). İnisiasiya ayinləri və simvolları: Doğuluş və yenidən doğuluş sirləri. New York: Harper & Row. 190 s.
Eliade, M. (1963). Mif və gerçəklik. New York: Harper & Row. 204 s.
Erikson, E. H. (1968). Identiklik: Gənclik və böhran. New York: Norton. 336 s.
Giddens, A. (1991). Modernlik və özünəməxsus identiklik: Gec modern cəmiyyətdə fərd və cəmiyyət. Stanford: Stanford University Press. 256 s.
Həbibbəyli, İ. (2009). Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı: Nurlan. 667 s.
Hutcheon, L. (1988). Postmodernizmin poetikası: Tarix, nəzəriyyə və bədii nəsr. New York: Routledge. 288 s.
İmanov, M. Müasir Azərbaycan nəsrində psixologizm. Bakı, 2021, 234 .
Jung, C. G. (1968). Arxetiplər və kollektiv şüuraltı. Princeton: Princeton University Press. 451 s.
LaCapra, D. (2001). Tarixi yazmaq, travmanı yazmaq. Baltimore: Johns Hopkins University Press. 240 s.
Lotman, Y. M. (1990). Zehnin kainatı: Mədəniyyətin semiotik nəzəriyyəsi. London: I.B. Tauris. 288 s.
Moretti, F. (2000). Dünyanın yolu: Avropa mədəniyyətində tərbiyə romanı (yenidən işlənmiş nəşr). London: Verso. 272 s.
Qarayev, Y. (2005). Seçilmiş əsərləri. Bakı: Elm. 576 s.
Ricoeur, P. (1992). Özü bir başqası kimi. Chicago: University of Chicago Press. 363 s.
Simmel, G. (2002). Metropol və zehni həyat. Oxford: Blackwell. 24 s.
van Gennep, A. (1960). Keçid mərasimləri. Chicago: University of Chicago Press. 224 s.

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license